Səh. 2 Dəyişməyən ünvan – Aytən Fətullayeva
Səh. 3 Təhsilə maraq, yoxsa məcburi alternativ – Çiyalə Osmanova
Səh. 5 Xalq yaddaşında ocağa sitayişin izləri – Afiq Muxtaroğlu
Səh. 6 Müəllimlərin emosional və psixoloji tükənmə səbəbləri– Leyla Yusifova
Səh. 2 Dövlət haradadır? – Ayhan Həsənli
Səh. 4 2025-Cİ İLİN MÜƏLLİMLƏR ÜÇÜN FƏNN İMTAHANLARININ KEÇİD BALLARI MƏLUMDUR
Səh. 7 Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərinə hücumu – Aleksandre Orbeliani

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 MAY
2025-Cİ İL
№ 09 (226)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## ABŞ KONQRESİ GÜRCÜSTANLA BAĞLI “MEGOBARİ AKTI”NI QƏBUL EDİB



ABŞ Konqresinin Nümayəndələr Palatası Gürcüstanla bağlı “Megobari Aktı”nı (Cavabdehlik, Dözümlülük və Müstəqillik İnşası üçün Gürcüstanın Seçimlərinin Səfərbər edilməsi və Artırılması Aktı) qəbul edib. Sənəd rəsmi şəkildə Senatın müzakirəsinə təqdim olunub.

Qanun layihəsini 168 respublikaçı və 181 demokrat olmaqla 349 konqresmen dəstəkləyib, 42 nəfər əleyhinə səs verib, 42 nəfər isə bitərəf qalıb.

Sənəddə ABŞ-Gürcüstan əlaqələrinin, o cümlədən bütün yardım proqramlarının tam şəkildə yenidən nəzərdən keçirilməsi, gürcü xalqının Avro-Atlantik inteqrasiyasına dəstək verilməsi, həmçinin ABŞ Prezidentinə Gürcüstanı bu istiqamətdən uzaqlaşdırmağa çalışan “Gürcü Arzusu” partiyasının rəsmilərinə və onların dəstəkçilərinə qarşı sanksiya tətbiq etməsi üçün çağırışlar əks olunub.

Qanun layihəsinin qüvvəyə minməsi üçün növbəti mərhələdə ABŞ Senatı tərəfindən təsdiqlənməsi tələb olunur.

Gürcüstan parlamenti ABŞ Nümayəndələr Palatasının dəstəklədiyi “Megobari Aktı”na cavab olaraq xüsusi bəyanat qəbul edəcək. Bu barədə parlamentin spikeri Şalva Papuaşvili bildirib.

Onun sözlərinə görə, parlamentin sədrinin, “Gürcü Arzusu” fraksiyasının liderlərinin, həmçinin parlamentdəki siyasi qrupların təşəbbüsü ilə hazırlanmış layihə artıq parlamentə təqdim olunub və baxılması üçün Xarici Əlaqələr Komitəsinə göndərilib.

## GÜRCÜSTAN MİQRASİYA SİYASƏTİNİ SƏRTLƏŞDİRİR




Gürcüstan parlamenti miqrasiya siyasətinin sərtləşdirilməsinə, o cümlədən cinayət və ya cinayət törədən əcnəbilər üçün cəza kimi deportasiyanın tətbiqinə dair qanunlar paketini birinci oxunuşda təsdiqləyib.

Qəbul edilmiş dəyişikliklərə əsasən, Gürcüstanda qalma qaydaları və viza rejimi pozulduğu halda, xarici vətəndaşların Gürcüstana səfəri qadağan ediləcək. Bu pozuntuya görə cərimələr təxminən 10 dəfə artacaq.

Əcnəbinin, həmçinin xırda xuliqanlıq, polisin əmrinə tabe olmamaq və ya nümayişlər haqqında qanunun pozulması kimi cinayətlərinə görə Gürcüstandan çıxarıla və ölkəyə girişinə qadağa qoyula bilər.

Gürcüstan sərhədini qanunsuz keçməkdə, miqrantları qanunsuz daşımaqda və ya qeyri-qanuni miqrantların ölkədə qalmasına şərait yaratmaqda ittiham olunan əcnəbilərə həbs cəzasına alternativ olaraq Gürcüstandan çıxarılma və müəyyən müddətə ölkəyə girişinə qadağa tətbiq edilə bilər.

Məhkəmə işin hallarını və cinayət törətmiş şəxsin şəxsiyyətini nəzərə alaraq, onun Gürcüstanda qalmasının məqsədəuyğun olmadığını müəyyənləşdirə, cəza növü kimi əcnəbinin Gürcüstandan çıxarılması və müəyyən müddət ərzində Gürcüstana girişinə qadağa qoyulması da gündəmdədir.

## İRAKLİ KOBAXİDZE DONALD TRAMPA AÇIQ MƏKTUB ÜNVANLAYIB



Gürcüstanın Baş naziri İrakli Kobaxidze ABŞ Prezidenti Donald Trampa və vitse-prezident Ceyms Devid Vensə açıq məktubla müraciət edib. Bu barədə Gürcüstan hökumət administrasiyası məlumat yayıb.

Bildirilib ki, məktubda Gürcüstan hökumətinin ABŞ ilə strateji tərəfdaşlığın təmiz səhifədən, konkret yol xəritəsi ilə yeniləməyə hazır olduğu barədə bəyanatlarına hələ cavab alınmayıb. Bununla yanaşı, Gürcüstan və ABŞ hökumətləri arasında bu günə qədər ən yüksək səviyyədə ünsiyyətin olmadığı qeyd edilib.

İ.Kobaxdize bildirib ki, bu susqunluq gürcü xalqını və Gürcüstan hökumətini təəccübləndirir.

Məktubda deyilir: “Bayden administrasiyası tərəfindən planlaşdırılan və USAID-in maliyyələşdirdiyi inqilab cəhdinin və zorakılığın qarşısını effektiv şəkildə alan Gürcüstan Baş nazirinin müavini və digər hökumət rəsmilərinə qarşı tamamilə anlaşılmaz sanksiyalar hələ də qüvvədədir. Bundan əlavə, bir neçə gün əvvəl ABŞ Konqresində gürcü xalqına və onun seçilmiş hökumətinə qarşı qərəzli və düşmənçilik xarakterli “Megobari Akt” adlanan absurd qanun qəbul edilib. Bu qanun gürcü xalqının təkcə Konqresə deyil, həm də təəssüf ki, gürcü cəmiyyətinin sizin administrasiyanıza inamını azaldır”.

Baş nazir vurğulayıb ki, Gürcüstan ABŞ Administrasiyasının “dərin dövlət”i məğlub edəcəyinə ümid edir. “Gürcüstan-ABŞ münasibətlərinin yenidən qurulması və ölkələrimiz arasında strateji tərəfdaşlığın bərpası üçün əsas rol oynamalı olan bu anı səbirlə gözləyirik. Bu mübarizədə uğurlar arzulayırıq”, – məktubda deyilir.

# DƏYİŞMƏYƏN ÜNVAN



İnsan həyatında bəzi dəyərlər var ki, onlar nə zamanla dəyişir, nə də unudulur. O dəyərlərin başında isə ailə gəlir. Ailə insanın ilk nəfəsini aldığı, ilk addımını atdığı, ilk sevincini və ilk kədərini bölüşdüyü müqəddəs bir məkandır. Hər şeyin başlandığı yerdir. İlk addım, ilk baxış, ilk gülüş... Və bəlkə də ilk dəfə "sevilmək" nədir, bunu biz ailədə öyrənirik. Zamanla böyüyürük, yollar dəyişir, insanlar dəyişir, amma bir ünvan dəyişmir – evimiz; içində bizi susaraq anlayan, səsimizdən halımızı duyan, baxışımızdan ağrımızı oxuyan insanlar – ailəmiz.

Çoxları deyir: "Heç kim ailə kimi sənə can yandırmaz". Bu təkcə doğru deyil, bu ən böyük həqiqətdir. Çünki dünya səni yanlış başa düşə bilər, dostların uzaqlaşa bilər, tanışlar unuda bilər, amma ailə sən yolunu azsan da, dönsən də, geciksən də qapısını üzünə açacaq yeganə yerdir. Onlar səni gözləməyə alışmış adamlardır – səssiz, narahat, amma sevgi ilə dolu insanlar...

Ailə bəzən bir ana baxışında gizlənir, bəzən ata nəfəsində, bəzən bacının səssizgileyində, bəzən qardaşın sərt, amma qoruyucu baxışında. Həyatda nə qədər yol getsək də, ən doğru yolun bizi uşaqlığımızın keçdiyi evə apardığını gec-tez anlayırıq.

Çox zaman belə deyirlər: "Qız uşağı ailə quranda öz evini tərk edəcək". Amma düşünürəm ki, bu ifadədə bir dəyişiklik olmalıdır. Qız övladı ailəsini tərk etmir, sadəcə həyatına yeni bir budaq əlavə edir. O, yeni bir ailə qurarkən öz köklərini qoparmamalıdır. İdeal ailə modeli odur ki, qurulan yeni ocaq əvvəlkindən ayrı yox, onunla birləşən, güclənən, dərinləşən bir ocaq olsun. Çünki bir qadının içində daşıdığı sevgi həm doğulduğu ailəni, həm də yaratdığı ailəni yaşatmaq gücünə malikdir.

Bəzi insanlar ailə anlayışını yanlış qavrayırlar. Evlənərkən hər kəs "yaxşı gündə, pis gündə, sağlamlıqda və xəstəlikdə" deyərək imza atır. Amma pis gün gəlib çatanda deyirlər: "Mən belə yaşaya bilmərəm..." Bəs hanı o içdiyin andlar? O imzanı atarkən verdiyin sözün mənasını unutdunmu?

Ailə yalnız xoş günlər üçün deyil, ağır günlərdə bir-birinə dayaq olmaq üçündür. Sevgi asan gəlir, amma sınaqlardan keçəndə əsl sevgiyə çevrilir. Əgər ailə yalnız rahatlıq üçünsə, bəs fırtına başlayanda kim əlini tutacaq? Ailə – buraxmayan əldir. Gedə bilərsən, uzaqlaşa bilərsən, amma sənə sevgisini itirməyən yeganə insandır sənin ailəndəki insanlar.

Ailə təkcə qan bağı deyil, ürək bağıdır. Ailə bir paylaşımdır. Ana süfrəsindəki son tikəni bölmək, bacı ilə gizli sirr paylaşmaq, ata ilə çiynində dünya qədər güvən hiss etməkdir. Ailə gecənin qaranlığında sığınacaq, həyatın fırtınasında liman, sevincin ən parlaq aynasıdır.

Səni heç kim anlamasa da, sənin üçün narahat olan, dualar edən, səssizcə sevincinə sevinən, kədərinə kədərlənən tək yerdir. Həyat dəyişə bilər, insanlar gələ və gedə bilər, amma ailə dəyişmir. O, sənə verilməmiş, sənə əmanət edilmiş bir varlıqdır. Qoru, sev və heç vaxt unutma, ailə sən olduğun üçün var və sən olmadıqda belə səni gözləyəcək tək ünvandır.

Bəlkə də bu gün valideynlərimizə bir təşəkkür borcluyuq. Bəlkə də bacı-qardaşımıza bir zəng etməliyik. Bəlkə də övladlarımızla bir az daha çox vaxt keçirməliyik. Çünki ailə var olduqca əlimizdə tutmalı olduğumuz ən qiymətli incidir. Və hər inci kimi, o da diqqət, sevgi və qayğı istəyir.

Bu gün biz təkcə ailə üzvlərimizi deyil, həm də ailə olmaq duyğusunu düşünürük. Hər bir evdə sevgi varsa, bu sevgi bütün cəmiyyətə yayılır. Ailənin güclü olduğu yerdə xalq da güclü olar. Çünki ailə təkcə fərdlərin deyil, bütöv bir millətin əsas sütunudur.

Bir evdə ana sevgi görürsə, xoşbəxtlik hiss edirsə o ev hüzur dolu olur. Onu da yaradan, məncə, ailə başçısıdır, o, sevgini hər kəsə ötürə bilir. Yaxşı ki, bu cür ailədə böyümüşəm. Bütün şansımı mən burada istifadə etmişəm.

Allah hər birimizə gözəl, sevgi dolu ailə nəsib eləsin. Amin!

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin 2-ci kurs tələbəsi*

# DÖVLƏT HARADADIR?



Bizdə dövlətin hər şeyə ixtiyarı var. Ona görə yox ki, bu ixtiyar təbii olaraq var, ona görə ki, onu biz vermişik, daha doğrusu, alıblar. Bunu verməli olduğumuza bizi inandırıblar. Reallıqda isə dövlətlər, əslində, dövlətçilik ideyasından çox uzaqdırlar. Çünki ortada bir dövlətçilik anlayışı mövcud deyil. Bizdə ölkə təməl prinsiplərə deyil, instinktlərə və siyasi elitaların gördükləri yuxulara əsasən idarə olunur.

Dövlətçilik ideyası dövlət olmaq yolunun anatomiyasıdır. Necə ki insan anatomiyasında hər orqanın öz funksiyası var, dövlətçilik ideyasının da təməl "orqanları" və funksional prinsipləri var. Bizdə isə bütün bu orqanlar "baş-ayaq" vəziyyətindədir.

Dünyada mövcud olan ən təsirli hüquqi aktlardan biri Amerika Birləşmiş Ştatlarının Müstəqillik Bəyannaməsidir. Həmin Bəyannamədə əks olunan ideyalar bu gün belə unutdurulmağa və əksinə yönləndirilməyə çalışılan əsas prinsiplərin təməlini təşkil edir. Bəyannamə bu sözlərlə başlayır: "Aydın və danılmaz bir həqiqətdir ki, insanlar bərabər yaradılmışdır və Yaradan onlara bəzi toxunulmaz hüquqlar bəxş etmişdir – həyat, azadlıq və xoşbəxtliyə can atmaq hüquqları. Bu hüquqları təmin etmək üçün hökumətlər yaradılır". Bu yanaşma dövlətin universal xidmət konsepsiyasının əsasını təşkil edir. Burada dövlət universal bir xidmət kimi təqdim olunur.

Bizdə isə xalqın kiçik bir hissəsindən başqa heç kim xoşbəxt deyil. Dövlətlər ali məqsədlərini yaddan çıxarıblar. Dövlətçilik ideyasından ali məqsədi çıxardıqda geridə yalnız sərhədlər qalır. Reallıqda bizdə dövlət olmağa yox, vətəndaş olmağa çalışırıq, dövlətin layiqli vətəndaşı olmağa. Bizi inandırıblar ki, layiqli vətəndaş olmalıyıq. Heç kim sual vermir: Əgər mən layiqli olmalıyam, bütün həyatımı bu yolda sərf etməliyəmsə, bəs dövlətim haradadır? Daha doğrusu, mən bu dövlətçiliyin nəyindəyəm? Bizi inandırıblar ki, biz olmadan da dövlət mövcud ola bilər. Formal olaraq, bəli. Halbuki məni xoşbəxt etmək üçün yaradılmış bir dövlət mən olmadan niyə və necə mövcud olmalıdır?

Bütün sistemlər insanı və onun hüquq və azadlıqlarını ali dəyər olaraq görməyi unudublar. İnsanları xoşbəxt etmək və onların azadlıqlarını təmin etmək üçün yaranmış ideya bu gün var olmaq naminə öz yaranma səbəblərini qurban verməyə hazır görünür. Hər fürsətdə ilk qurban verilənlər insanlar və onların hüquqları olur.

Nəticə etibarilə, dövlətçiliyimiz də yarımçıq qalır. Məhkəmələr təsirlə idarə olunur, çünki dövlətçilik dəyərlərində öz yerlərini yadırğayıblar. Hakimiyyətimiz hakimiyyət deyil, müxalifətimiz müxalifət deyil, siyasətimiz siyasət deyil. Çünki dövlətçilikdə onların real rolları və mövcud olma səbəbləri ikinci dərəcəlidir. İnsan və insanı insan edən təməl hüquq və azadlıqlar gedən proseslərin sadəcə formal parçasıdır. Uzun sözün qısası, bizdə dövlətçilik hələ oturmayıb. Bu formada davam etsə oturan da deyil, çünki onu başqa yerə oturtmağa çalışırıq.

Bəs Demokratiya, Avtoritarizm, Dikdatura, Monarxiya və s.? Dövlət olmadan dövlətin idarə formasına nə hacət? Bizdə xım düzgün tökülməyib. Bu "fundamentlə" heç bir sistem bərkiyə bilməz. Əvvəlcə sistem qəbul etməlidir ki, dövlət insanların xoşbəxtliyi üçün yaradılıb və insanlar olmadan dövlət boş tövlədən başqa bir şey deyil. Dövlətçiliyin təməl dəyərləri – insanın təməl dəyər olmasıdır. Ondan sonra nə Avtoritarizm, nə Monarxiya, nə də Dikdatura istəsən də mövcud ola bilməz. Çünki təməlində insanın hüquq və azadlıqları dayanan dövlətçilik bu formaları qəbul etmir. Dəyərləri oturuşmuş bir dövlətdə bu idarə formaları özözünə sıradan çıxır.

Əmin ola bilərsiniz ki, bu gün Gürcüstan Parlamentini iki il bağlayıb heç açmasalar, biz onun fəaliyyət göstərmədiyini belə hiss etmərik. Çünki təməli boş olan sistemin institutları da formal olur. Onların heç biri mövcud olma səbəbi olan dəyərlərə xidmət etmir. Ona görə də əvvəldən başlamalıyıq: dövlət haradadır?

**Ayhan HƏSƏNLİ**



# TƏHSİLƏ MARAQ, YOXSA MƏCBURİ ALTERNATİV

Üç il bundan əvvəl “Bəs oğlanlar hanı” adlı yazımda belə bir fikir irəli sürmüşdüm: “Qızlar cəmiyyətdə fəal iştirak etməyə başladıqca oğlanlar reytinqi tutmayan verilişlər, seriallar kimi efirdən yığışmağa başladılar”. O vaxtkı müşahidələrim və düşüncələrim əsasən məktəblə məhdudlaşsa da universitetə daxil olduqdan sonra oxuyan oğlanların sayının çoxluğunu görüb mövzunun heç də mənim fikirləşdiyim kimi olmadığını anlamışdım. Xoşbəxtlikdən son illər regionlarımızda ali təhsil alan oğlanların sayı sürətlə artır. Lakin məndə indi də başqa suallar yaranır. Doğrudanmı bu artımın səbəbi elmə maraqdır? Yoxsa bu, yalnız hərbi xidmətdən yayınmağın başqa bir formasıdır? Bu suallara cavab tapmaq üçün kiçik araşdırmalar etmişəm və bunları sizinlə bölüşmək istəyirəm.

Bildiyimiz kimi, Gürcüstanda hərbi xidmət 18-27 yaş arası kişilər üçün məcburidir və 12 ay davam edir (müəyyən istisnalar da mövcuddur). Mövcud qanunvericiliyə görə, universitetdə oxuyan şəxslər hərbi xidmətdən təxirə salınma hüququna malikdirlər. Bu isə bir çox gəncin formal olaraq universitetə daxil olmasına, lakin real təhsil prosesi ilə maraqlanmamasına səbəb olur. Gürcüstan Milli Statistika İdarəsinin 2023-cü il məlumatına əsasən, azərbaycanlıların üstünlük təşkil etdiyi Kvemo Kartli bölgəsində universitetlərə qəbul olanların sayı son beş ildə 32 % artmışdır. Bu göstərici ilk baxışdan ümidverici görünsə də, bölgədə fəaliyyət göstərən bəzi müəllimlərin və yerli QHT-lərin rəylərinə əsasən, bu artımın arxasında əsasən hərbi xidmətdən yayınmaq dayanır. “Son 3 ildə universitetlərə qeydiyyatdan keçən oğlanların əksəriyyəti real təhsil almaq niyyətində deyil, onların əsas məqsədi hərbi xidmətdən möhlət almaqdır”, – deyə Marneulidə fəaliyyət göstərən bir təhsil mərkəzinin rəhbəri bildirir. Bu mövzuya diqqət yetirən şəxslərdən biri də psixoloq İrakli Qobexiadır. O, bu tendensiyanı belə izah edir: “Azərbaycanlı ailələrdə oğlan uşağının hərbi xidmətə getməsi bəzən qorxu ilə qarşılanır. Ailələr oğullarını ya fiziki təhlükədən qorumaq, ya da onların “nizam-intizamla əldən çıxacağı” düşüncəsi ilə hərbidən yayındırmağa çalışır. Təəssüf ki, bu qorxu təhsilin keyfiyyətini də təhlükə altına alır”.

Bəs bu qorxunun kökü haradadır? Sovetdən qalma travmalar? Rusiya və Ukrayna arasında davam edən müharibə? Ya da sadəcə olaraq, məsuliyyət daşımağa hazır olmayan bir gənclik? Axı nə üçün onlar hərbi xidmətdən yayınıb universitetlərdə özlərinə “sığınacaq” tapırlar? Məncə, bu vəziyyətin kökləri təkcə bu günün qorxularında deyil, həm də dünənin susqunluqlarında gizlənib. Sovet dövründən miras qalmış kollektiv yaddaşda hərbi xidmət heç vaxt sadəcə bir vətəndaşlıq borcu kimi təqdim olunmayıb – o, daha çox sərtlik, itki, vətəndən uzaqlaşmaq və bəzən də iztirabla assosiasiya olunub. Bu travma nəsildən-nəslə ötürülüb, üstəlik, bugünkü geosiyasi reallıqlarla, yəni Rusiya-Ukrayna müharibəsi, regionda sabitliyin qeyri-müəyyənliyi ilə daha da güclənib. Bəziləri düşünürlər ki, bu müharibə böyüyüb III Dünya müharibəsinə çevrilib Gürcüstandan da yan keçməyəcək. Digər tərəfdən, biz bir gənclik yetişdirmişik ki, o, hərbi intizamı yox, fərdi azadlığı üstün tutur. Onlar üçün bir illik hərbi xidmət sadəcə vaxt itkisi deyil, bu, həm də özlərini kəşf, inkişaf və reallaşdırma yolunda qarşılarına çıxan sərhəddir. Universitet isə onların gözündə sanki bir azadlıq adasıdır. O adada olmasalar, bəlkə də suyun içində boğulacaqlarını düşünürlər. Amma bütün bunlara baxmayaraq, bir il itirməmək üçün dörd ilini bu adada keçirmək də onlara müsbət bir nəticə qazandırmır, əksinə, həm onların özlərinə, həm də ətraflarına mənfi təsir göstərir.

Bu gün universitet auditoriyalarında iki müxtəlif tələbə tipi paralel şəkildə mövcuddur: biri həqiqətən öyrənmək, inkişaf etmək, sabahkı günə hazırlaşmaq üçün gələnlərdir; digəri isə yalnız hərbi xidmətdən yayınmaq məqsədilə burada olanlardır. Bu ikiliyin yaratdığı ziddiyyət universitet mühitini sarsıdır və təhsilin keyfiyyətini aşağı salır. Real təhsil almaq istəyən gənclər özlərini motivasiyasız və məqsədsiz qrupun içində tənha hiss edirlər. Nəticədə ümumi akademik səviyyə düşür, müəllimlər dərsə maraq göstərməyənlərlə baş-başa qalır, universitetlər isə diplom fabriklərinə çevrilmək təhlükəsi ilə üz-üzə qalır.

Daha təhlükəlisi – bu məsələ artıq cəmiyyətin şüuruna sirayət edib. İnsanlar ali təhsili, diplomu, universitet mühitini ciddiyə almamağa başlayıblar. “Onsuz da oxuyanlar işsiz qalır” və ya “Oxuyur, amma nə xeyiri var?” kimi fikirlər gündəlik dilin ayrılmaz hissəsinə çevrilib. Bu isə gənclərin elmə olan inamını kökündən sarsıdır. Əgər bir gənc öz bacarığı, zəhməti və biliyi ilə qəbul olduğu universitetdə oxuyan, amma ətrafında “ad yazdırıb, gəlməyən” onlarla tələbə görürsə, onun motivasiyası da zamanla zəifləyəcək. Ən narahatedici tərəf isə bu cür davranışların normal hal kimi qəbul edilməyə başlamasıdır. Yəni bir çox gənc artıq universiteti elmi bilik və akademik uğur yeri kimi deyil, sadəcə “əsgərlikdən yayınma vasitəsi” kimi görür. Halbuki ali təhsil hər bir gəncin həyatında dönüş nöqtəsi olmalı, onu cəmiyyətə faydalı bir şəxsiyyətə çevirməli idi.

Təəssüf ki, hazırkı reallıqda bu missiya getdikcə arxa plana keçir. Bəlkə də bu tendensiyanın qarşısını almağın ilk yolu təhsilə giriş motivasiyasının dəyişməsindən keçir. Universitet yalnız seçim yox, hədəf olmalıdır. Ailələr, müəllimlər və dövlət orqanları gəncləri təhsilə yalnız bir vasitə kimi deyil, dəyər kimi yanaşmağa təşviq etməlidirlər. Eyni zamanda, hərbi xidmətin də modernləşdirilərək daha inklüziv və şüurlu bir vəzifə halına gətirilməsi zəruridir. Əgər hərbi xidmətlə bağlı bu qədər qorxu və çəkinmə varsa, deməli bu sahədə də ciddi islahatlara ehtiyac var. Çünki nə hərbi xidmətdən yayınmaqla qazanılmış bir diplom, nə də təhsilin mahiyyətini anlamadan keçirilmiş dörd il bir gəncin həyatını dəyişə bilər. Həm təhsil, həm də vətəndaşlıq borcu şüurlu və məsuliyyətli şəkildə həyata keçirilməlidir. Əks halda, biz universitet məzunu olan, amma nə peşəsi, nə də məqsədi olan bir gənclik yetişdirəcəyik. Bu isə təkcə onların yox, cəmiyyətin də gələcəyinə vurulan ən böyük zərbə olacaq.

**Çiyalə OSMANOVA**
*Tbilisi Dövlət Universitetinin sosial və siyasi elmlər fakültəsinin 1-ci kurs tələbəsi*

# TƏCRÜBƏSİZ TƏHSİL



Jurnalist əlində mikrofon tutmadan necə jurnalist olar? Proqramçı real kod yazmadan necə proqramçı olar? Gələcəyin peşəkarları yalnız kitablarla hazırlaşırlarsa bu, peşəkar olmaları üçün yetərlidirmi?..

Biz oxuyuruq, amma tətbiq edə bilmirik. Dərslər PDF-lər ilə doludur. Hər dərs sözdə “dolu-dolu” keçirilir. Amma real həyatda qarşılaşacağımız vəziyyətlərə hazır deyilik. Bu yazı həm bu suallara cavab axtarır, həm də praktikadan məhrum qalan bir çox tələbənin deyə bilmədikləri, içindəki səssiz narazılığını dilə gətirir.

Mənim sinif yoldaşım və eyni zamanda ən yaxın rəfiqəm jurnalistika fakültəsində oxuyur. Mən isə kompüter elmləri üzrə təhsil alıram. Eyni universitetdə oxuyuruq, amma ixtisaslarımız fərqlidir. Yolumuz, dərslərimiz və müəllimlərimiz ayrı olsa da, üzləşdiyimiz əsas problem ortaqdır: təcrübə yoxluğu.

Bir neçə gün əvvəl dərsdən çıxıb evə qayıdarkən təsadüfən avtobusda qarşılaşdıq. Yol yoldaşı olmaq fürsətindən istifadə edib dərslərin gedişatından, müəllimlərdən, ixtisasımızla bağlı ümumi təəssüratlardan danışdıq. O, jurnalistika fakültəsində oxumağın ona maraqlı gəldiyini, bu sahədə nələr etmək istədiyini dedi. Amma bu marağın universitetin tədris sistemi ilə azaldığını etiraf etdi. “Biz oxuyuruq, amma jurnalist olmağa imkan verilmir” – Onun bu cümləsi məni dərin düşüncəyə saldı.

Onun dediklərinə görə, dərslər əsasən nəzəriyyə ilə doludur. Amma nə vaxtsa real bir hadisənin yerində olmaq, canlı reportaj hazırlamaq, mikrofonla cəmiyyətin içərisində olmaq və s. – bunlar üçün imkan yaradılmır. Xarici ölkələrdə oxuyan tələbələrin müəyyən hadisələr baş verdikdə ora getmələri, reportaj hazırlamaları, jurnalist olaraq formalaşmaları üçün şərait yaradılır. Bizdə isə hər şey slaydlarda qalır. Həmişə xaricdə oxuyanlardan bizim nəyimiz əskikdir deyirdim. Amma indi əskikliklərimizi daha yaxşı başa düşürəm...

Bu narazılıq təkcə jurnalistikaya aid deyil. Məndə də vəziyyət eynidir. Mən kompüter elmləri, daha dəqiq, proqramlaşdırma üzrə təhsil alıram. Rəqəmsal dünya, texnologiya, alqoritmlər... necə də maraqlı sahədir, elə deyilmi? Mən də belə düşünürdüm. Amma bu qədər dinamik sahənin tədrisi, təəssüf ki, PDF-lər ilə passiv şəkildə aparılır. Kod yazmağı öyrənməliyik, amma kodu ancaq kağız üzərində yazırıq. Komanda işi, real layihələr, proqram hazırlığı... – bütün bunlar dərs proqramında yoxdur. Laboratoriyalar texniki avadanlıqdan məhrumdur. Müəllimlərin bir çoxu yalnız nəzəri bilik ötürür. Sanki gələcəkdə proqramları biz kompüterdə deyil, kağız üzərində yazacağıq. Əldə etdiyimiz bilikləri sınamaq, tətbiq etmək, səhv etmək, nəticə çıxarmaq üçün heç bir mühit yaradılmır. Halbuki proqramçı olmaq istəyən bir tələbə mütləq layihələrdə iştirak etməlidir, kod yazıb nəticəsini görməlidir. Jurnalist isə hadisə yerində olmalı, insanlarla ünsiyyətdə olmalı, canlı həyatın içindən xəbər çıxarmalıdır.

Tədris sistemləri tələbəyə həm bilik, həm də bacarıq verməlidir. Bilik başa düşmək üçündür, bacarıq isə onları həyata tətbiq etmək üçündür. Tələbə universiteti bitirdikdə sadəcə diplom deyil, həm də öz sahəsində müəyyən təcrübə ilə məzun olmalıdır. Biz isə bu gedişlə sadəcə diplomlu olacağıq. Bu məsələyə yalnız bir-iki fakültənin problemi kimi yanaşmaq da düzgün deyil. Bu, bütün ali təhsil sistemində yayılmış ümumi bir problemdir. Tibb tələbələri real xəstə ilə işləmədən həkim ola bilməz. Müəllimlik oxuyan bir tələbə sinfə girmədən müəllim ola bilməz. Hər bir peşənin sahibi real mühitə girmədən öz sahəsində formalaşa bilməz. Yoxsa, biz oxumağa davam edəcəyik, amma bacarmadan, sınamadan, tətbiq etmədən, sadəcə diplom almaq üçün. Və bu halda diplom kağız parçasından başqa bir şey olmayacaq.

**Validə FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin 1-ci kurs tələbəsi*

# 2025-Cİ İLİN MÜƏLLİMLƏR ÜÇÜN FƏNN İMTAHANLARININ KEÇİD BALLARI MƏLUMDUR



**2025-ci ilin müəllimlər üçün fənn imtahanlarının keçid balları aşağıdakı kimidir:**

Gürcü dili və ədəbiyyatı (baza və ya orta pillə); coğrafiya (baza və ya orta pillə); tarix (baza və ya orta pillə); biologiya (baza və ya orta pillə); kimya (baza və ya orta pillə); fizika (baza və ya orta pillə); riyaziyyat (baza və ya orta pillə); xarici dillər (ibtidai, baza, yaxud orta pillə); vətəndaş təhsili (baza və ya orta pillə); gürcü dili (qeyri-gürcüdilli məktəblər/bölmələr üçün) (ibtidai, baza, yaxud orta pillə); təsviri və tətbiqi incəsənət, musiqi, idman, təbiətşünaslıq (ibtidai pillə); gürcü dili və ədəbiyyatı (ibtidai pillə); riyaziyyat (ibtidai pillə); gürcü dili və ədəbiyyatı, riyaziyyat, təbiətşünaslıq (I-IV siniflər); Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər); rus dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər); erməni dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər); informasiya və kommunikasiya texnologiyaları/kompüter texnologiyaları, erməni dili və Azərbaycan dili imtahanında aplikant fənn imtahanından uğurla keçmiş hesab olunmaq üçün maksimum balın 60 %-dən artığını toplamalıdır. Konkret olaraq:

- Gürcü dili və ədəbiyyatı (baza və ya orta pillə) – 43 bal və daha artıq;
- Riyaziyyat (baza və ya orta pillə) – 25 bal və daha artıq;
- Coğrafiya (baza və ya orta pillə) – 34 bal və daha artıq;
- Biologiya (baza və ya orta pillə) – 37 bal və daha artıq;
- Kimya (baza və ya orta pillə) – 37 bal və daha artıq;
- Fizika (baza və ya orta pillə) – 37 bal və daha artıq;
- Tarix (baza və ya orta pillə) – 34 bal və daha artıq;
- Vətəndaş təhsili (baza və ya orta pillə) – 34 bal və daha artıq;
- Xarici dillər (ibtidai, baza və ya orta pillə) – 55 bal və daha artıq;
- Gürcü dili (qeyri-gürcüdilli məktəblər/bölmələr üçün) (ibtidai, baza və ya orta pillə) – 52 bal və daha artıq;
- Tətbiqi və təsviri incəsənət – 37 bal və daha artıq;
- Musiqi – 43 bal və daha artıq;
- İdman – 43 bal və daha artıq;
- Gürcü dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər) – 40 bal və daha artıq;
- Erməni dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər) – 40 bal və daha artıq;
- Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər) – 40 bal və daha artıq;
- Rus dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər) – 40 bal və daha artıq;
- Gürcü dili və ədəbiyyatı (ibtidai pillə) – 32 bal və daha artıq;
- Təbiətşünaslıq (ibtidai pillə) – 32 bal və daha artıq;
- Riyaziyyat (ibtidai pillə) – 32 bal və daha artıq;
- İnformasiya və kommunikasiya texnologiyaları/kompüter texnologiyaları – 43 bal və daha artıq;
- Erməni dili – 43 bal və daha artıq;
- Azərbaycan dili – 43 bal və daha artıq.

Gürcü dili və ədəbiyyatı, riyaziyyat, təbiətşünaslıq (I-IV siniflər); erməni dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər); Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər); rus dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər); təbiətşünaslıq (ibtidai pillə); gürcü dili və ədəbiyyatı (ibtidai pillə); riyaziyyat (ibtidai pillə); xarici dillər (ibtidai, baza və ya orta pillə); gürcü dili (qeyri-gürcüdilli məktəblər/bölmələr üçün) (ibtidai, baza və ya orta pillə) – testlər bir neçə hissədən ibarətdir. Aplikant imtahandan keçmək üçün bu qərarın birinci bəndi ilə tətbiq edilmiş keçidlə (60 %-dən artıq) yanaşı testin hər bir hissəsinin keçidini aşağıda qeyd edilmiş prinsipə uyğun olaraq aşmalıdır. Konkret olaraq:

- Gürcü dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər); erməni dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər); Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər); rus dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər) – müəllimlər üçün test iki hissədən ibarətdir. Buradan bir hissədə – akademik bacarıqlar hissəsində müəllim maksimum balın (akademik bacarıqlar hissəsində maksimum bal – 14) 40 %-dən artığını (yəni 6 bal və ya daha artıq) toplamalıdır;
- Təbiətşünaslıq (ibtidai pillə); gürcü dili və ədəbiyyatı (ibtidai pillə); riyaziyyat (ibtidai pillə) – testi iki hissədən ibarətdir. Buradan bir hissədə – akademik bacarıqlar hissəsində müəllim maksimum balın (akademik bacarıqlar hissəsində maksimum bal – 14) 40 %-dən artığını (yəni 6 bal və ya daha artıq) toplamalıdır.
- Xarici dillər imtahanı dörd hissəyə bölünür. Buradan 4 hissədə – nitq, yazı, oxu və dinləmə hissələrində aplikant maksimum balın üçdə birini və ya daha artığını toplamalıdır. Konkret olaraq, nitq hissəsində maksimum bal 16 bal – keçid balı 6 bal və ya daha artıq; yazı hissəsində maksimum bal 22 – keçid 8 bal və daha artıq; dinləmə hissəsində maksimum bal 16 – keçid 6 bal və daha artıq; oxu hissəsində maksimum bal 36, keçid isə 12 bal və ya daha artıq müəyyən edilib.
- Gürcü dili (qeyri-gürcüdilli məktəblər/bölmələr üçün) (ibtidai, baza və ya orta pillə) beş hissəyə bölünür. Testin hər bir hissəsi üçün daxili keçid balının 40 %-dən artığı müəyyən edilib, konkret olaraq, dinləmə hissəsində maksimum bal 9 – keçid balı isə 4 bal və daha artıq; oxu hissəsində maksimum bal 25 – keçid balı isə 11 və daha artıq; yazı hissəsində ən yüksək bal 20 – keçid isə 9 bal və daha artıq; peşə bilikləri bölməsində maksimum bal 20 – keçid balı isə 9 bal və ondan yuxarı hesab olunur; nitq hissəsində isə maksmimum bal 11 – keçid balı isə 5 və daha artıq müəyyən edilib;
- İnformasiya və kommunikasiya texnologiyaları/kompüter texnologiyaları testi 2 hissədən ibarətdir – peşə bilgisi (yazılı) və praktiki bacarıqlar (təcrübə). Testin hər bir hissəsində aplikant maksimum balın 40 %-ni (yəni 14 və daha artıq) toplamalıdır.

2025-ci ilin baza peşə bacarıqları imtahan testinin maksimum balı 45 baldır. İmtahan vaxtı isə 4 saatdır. Baza peşə bacarıqlarını uğurla vermək testin maksimum balının ən azı 40 %-ni toplamağı (18 bal və daha artıq) nəzərdə tutur.

Xüsusi baş müəllim testinin ən yüksək balı 54 baldır. İmtahan vaxtı 4 saatdır. Aplikant ən yüksək balın 60 %-dən artığını (33 və daha artıq) toplayarsa keçidi aşmış hesab olunur.

# VAHİD MİLLİ İMTAHANLARDA MAKSİMUM BALLAR VƏ İMTAHAN MÜDDƏTİ MƏLUMDUR

Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz 2025-ci ilin vahid milli imtahanların, tələbələrin qrant müsabiqəsinin maksimum ballarını və imtahanların vaxtını yayımlayıb.

**Fənlərə görə imtahanların maksimum balları və verilən vaxt aşağıdakı kimidir:**

- Gürcü dili və ədəbiyyatı – 60 bal – 3 saat;
- Ümumi qabiliyyət (verbal hissə) – 80 bal – 1 saat 35 dəqiqə;
- Ümumi qabiliyyət (riyazi hissə) – 1 saat 35 dəqiqə;
- Xarici dillər – 70 bal – 2 saat 30 dəqiqə;
- Ədəbiyyat – 70 bal – 4 saat;
- Riyaziyyat – 51 bal – 3 saat;
- Tarix – 60 bal – 2 saat 40 dəqiqə;
- Coğrafiya – 59 bal – 2 saat 40 dəqiqə;
- Biologiya – 70 bal – 2 saat 30 dəqiqə;
- Kimya – 63 bal – 3 saat;
- Fizika – 63 bal – 3 saat;
- Tələbələrin qrant müsabiqəsi – 42 bal – 2 saat 35 dəqiqə;
- Təsviri və tətbiqi incəsənət – 70 bal – 3 saat;
- Vətəndaş təhsili – 60 bal – 3 saat 10 dəqiqə;
- Abxaz dili – 60 bal – 3 saat;
- Osetin dili – 60 bal – 3 saat.



*Səhifədəki məlumatlar "edu.aris.ge" və "etaloni.ge" saytlarından götürülüb. Gürcü dilindən tərcümə etdi*

***Aynurə ƏLİYEVA***

# XALQ YADDAŞINDA OCAĞA SİTAYİŞİN İZLƏRİ



Əski insanın ibtidadan tanıdığı və həm də qorxduğu od buzlaşma dövründə onun xilaskarına çevrildi. Odun təbii xüsusiyyətlərinə bələd olduqca oddan qorxu hissini oda məhrəmlik, doğmalıq hissi əvəzlədi. Odun insan tərəfindən mənimsənilməsi onun soyuqdan qorunmasına, yırtıcı heyvanlardan müdafiə olunmasına gətirib çıxardı. Qədim insan oddan istifadəyə yiyələnməklə təbii bir qorunma vasitəsi əldə edərək, bu vasitə ilə təbiət üzərində daha bir qələbəyə imza atmaqla təbiətdən daha da uzaqlaşdı. Odun mənimsənilməsi qədim insanın ictimai varlığa çevrilməsi prosesini daha da sürətləndirdi. Başının üstündə Günəşin, əlinin altında odun-ocağın enerjisini, gücünü bütün varlığıyla hiss edən insan bu təbii həyat qaynağına xüsusi bir ehtiramla yanaşmağa başlamış, onu incidəcəyindən, küsdürəcəyindən əndişələnərək oda-ocağa başqa gözlə baxmış, onu qutlu-müqəddəs hesab etmiş, onun şərəfinə xüsusi ayinlər düzənləmişdir.

İnsan odu-ocağı minillər boyu sönməyə qoymamış, onun yanmasını həyatla, var olmaqla, sönməsini isə ölümlə, yoxluqla əlaqələndirmiş, ocağın alovunun, közünün, qorunun, kösövünün, tüstüsünün, kömürünün, külünün, eləcə də yanarkən çıxardığı səslərin, alovunun rənginin müəyyən informasiya, xəbər daşıyıcısı olmasına inanaraq, onu canlı bir varlıq, hətta fövqəltəbii bir qüvvə saymışdır. Günəşin, yerdə onun təmsilçisi olan odun, onun komponentlərinin, eləcə də rənginə və formasına görə Günəşi xatırladan əşyaların da sakral bir varlıq olması qənaətinə gəlmişdir.

Daha sonralar isə ocağın gücündən qəbilənin, tayfanın qanunlarını tənzimləyən, qəbilə adətlərini pozmaqda şübhəli bilinənləri müəyyənləşdirən bir vasitə kimi istifadə etmişdir. Oda-ocağa bu cür münasibət onun qutsal dəyərlər qazanmasına, maddilikdən çıxarılaraq mənəvilik məqamına yüksəldilməsinə, müqəddəsləşdirilməsinə, həyat qaynağı fövqəltəbii qüvvə hesab edilməsinə, insan düşüncəsində universal sistemə çevrilməsinə gətirib çıxarmış, habelə od əski kosmoqonik düşüncənin biçimlənməsində, şəkillənib dolğunlaşmasında müxtəlif mənalar, fərqli keyfiyyətlər də əldə etmişdir. Günəşin, odun-ocağın həyatındakı yerinin böyüklüyünü dərk edən insan onu ilahiləşdirərək, böyük bir coğrafi arealın müxtəlif etnoslarını əhatə edən universal bir dinə çevirmiş, yüzilliklər boyu varlığını sürdürən Zərdüştlüyün, digər adıyla atəşpərəstliyin əsas komponentlərindən biri kimi sitayiş obyekti məqamına çata bilmişdir. Bu dinin müqəddəs kitabı "Avesta"nın sətirləri sanki odla, atəşlə yazılmışdır. Göydə Günəşin, yerdə onun bəlgəsi sayılan odun-ocağın şəninə nəğmələr qoşulmuşdur.

Əsas mövzumuza açar salmaq üçün dediklərimizin kifayət edəcəyi ümidiylə yeni abzasa keçid alırıq.

Ənənəmizə sadiq qalaraq, el ağzında yaşayan deyimləri, xalq yaddaşında varlığını sürdürən inancları tutalğac edib mövzu ilə bağlı qənaət və düşüncələrimizi vermək niyyətindəyik. Orasını da altını cızaraq deməyi özümüzə borc bilirik ki, mövzuya yanaşmamızın necəliyi barədə bu sahənin araşdırıcılarının fikirlərini dörd gözlə gözləyirik.

Od-ocaq təkcə soyuqdan qoruma, şər qüvvələri qovma vasitəsi olmaqla vəzifəsini bitirmir. Ocaq həm də ailəni anladan bir istilaha çevrilir. Ocaq ailənin nişanına çevrildiyi kimi, ocaq sözündən yaranmış ocaqlıq deyimi də ailəyə, daha doğrusu, patriarxal ailəyə aid olanların cəmini ifadə edir. Ocaq ailənin simvoludur. Evdə ocağın yanması həyatın var olmasını təsdiqləyir. Evin ocaqsızlığı orada kimsənin yaşamadığına, həmin evin yiyəsizliyinə dəlalət edir.

Bundan başqa, ocaq həm də ziyarətgah anlamında işlədilən bir sözdür. Qarayazıda müsəlmanlara xas ziyarətgahların ocaq adlandırılması adi bir haldır. Bizim camaatın ziyarət yerləri xalq arasında "Hacı Əfəndinin ocağı", "Hacı Xəlil ocağı" adlandırılır.

Xalq dilində "ocağın qaralsın" kimi bir qarğışın varlığı qarğış edən adamın qarğış etdiyi şəxsə evinin, ailəsinin məhv olması, yoxa çıxması arzusunu ifadə edir. Əslində, əski türk xalqlarında ailənin sonuncu üzvü ölərkən, həmin evin ocağının söndürülməsi adəti varmış. Nəzərli və Kosalı kəndlərində "ocağın qaralsın" kimi bir qarğışın yaşaması bu qədim adətin xalq yaddaşındakı izindən başqa bir şey deyil. Üstəgəl, bu gün də Nəzərli və Kosalıda ocağın su ilə söndürülməsi yasaqdır. Xalq düşüncəsində ocağın su ilə söndürülməsi ailənin məhv edilməsi kimi anlaşıldığından belə bir tabunun, yasağın yaranması təbii qəbul etməliyik.

Günəşə, onun yerdəki simvolu oda-ocağa müqəddəs varlıq kimi baxılması barədə artıq məlumatımız var. Odun-ocağın təhqir edilməsi, murdarlanması xalq inamlarımızda yolverilməz sayılmış, belə bir addımın atılması günah hesab edilmişdir. Uşağın odla oynaması bu gün də yasaq sayılır, onun yanar kösövlə oynaması günah hesab olunur.

Odun qoruyucu funksiyası barədə də ötəri də olsa yuxarıda bəhs etmişdik. Bu fikrimizi bir neçə misalla əsaslandırmağa cəhd edək. Yaxın keçmişə qədər gecə körpə uşağı evdən bayıra çıxararkən, onun bələyinə və ya paltarına əppək qoymaq kimi bir adət də mövcud olmuşdu. Fikrimizcə, əppək, yəni çörək odda bişdiyinə və rənginin günəşə bənzəməsinə görə uşağı qaranlıqda fəal olan şər qüvvələrdən qoruma vəzifəsini yerinə yetirirdi.

Gecə evdən süd çıxarılarkən və ya kiməsə verilərkən süd qabının içərisinə bir kiçik kömür parçası atılırdı ki, bu da xalq düşüncəsində südü, eləcə də süd verən heyvanları şər qüvvələrdən gələ biləcək bəlalardan qoruma vasitəsi kimi anlaşılırdı. Bu inanca digər türk xalqlarında da rast gəlinir. Qazax araşdırmaçı G.K.Rysbaeva bu xüsusda yazır: "Əski xalq inancına görə, günəş batdıqdan sonra, xüsusilə də aylı gecədə bayıra süd çıxarılmaz, çıxarılsa belə süd qabının qapadılması gərək imiş. Əgər süd qabına ay işığı düşərsə inək, madyan kimi süd verən heyvanların məmələri xəstələnər inancı varmış. Belə bir bəlaya uğramamaq üçün yanan ağacla bayıra çıxılırmış. Bu adət odun gücünə inamla bağlı olmalıdır. Bu adətə özbəklər və taciklər arasında da rast gəlinir".



Başqa bir örnək də verək. Xalq inamlarımızda bayquş şərin təmsilçisidir. O, bədbəxtliyin, xəstəliyin, ölümün xəbərçisi sayılır. Gecə həyatı keçirən bu quşa əski insanların belə bir münasibət bəsləməsi təbii sayılmalıdır. O üzdən ki, qədim təsəvvürlərə görə, gecə şərin, şər qüvvələrin fəal olduğu bir zamandır. Bu zaman ərzində fəaliyyət göstərən quş da şərin xəbərçisi hesab olunurdu. Onun bəy-quş adlandırılması da, şər qüvvələrin qəzəbinə tuş gəlməmək, onları neytrallaşdırmaq üçün düşünülmüş olmalıdır. Düzdür, tədqiqatçılar arasında bayquş adının həmin quşun çıxardığı "bayqu" səs təqlidindən yarandığını söyləyənlər də var. Həyətdə bayquş uçardısa, ulayardısa onun uçduğu səmtə yağlı kösöv atardılar. Bu, bayquşa verilən pay hesab edilsə də, odun qoruyucu gücü ilə ondan qorunmanı da özündə ehtiva edir. Burada yağlı kösöv günəşin rəmzi olmaqla şər qüvvələrdən qoruma vəzifəsini daşıyırdı.

Digər bir örnəyimizdə də od yağla birləşərək, başqa bir funksiyanın daşıyıcısına çevrilərək qədim insanın düşüncəsinə ayna tutur. Bu gün türk xalqlarının yaşadığı əksər ərazilərdə toy mərasiminin bir epizodu kimi yaşadılan bir adət cüzi fərqlərlə diqqəti cəlb edir. Belə ki, gəlin bəy evinə daxil olarkən ocaq və ya xüsusi qaba qoyulmuş köz ətrafında üç dəfə dolandırılır, bu zaman yanar ocağa kərə yağı atılır, gəlin əlində tutduğu metal şişi ocağa toxundurur və sonda həmin şişi yerə sancır. Bu gün də icra olunan bu mərasimin əsas mahiyyəti unudulmuş, yalnız icrası yadda qalmışdır. Əslində, bu mərasim ocaq ilahəsinin şərəfinə yeni ailə quranların həyata keçirdikləri qədim bir ayindən başqa bir şey deyil. Ocağa atılan yağ yeni ailənin ocaq tanrı və tanrıçalarına verilən paydır, ocaqda qızdırılaraq yerə sancılan metal şiş isə yeni ailəyə sədəmə toxundura biləcək şər qüvvələrdən qorunma vasitəsidir. Bu adətin fərqli şəkildə icrası Altay türklərində də olmuşdur. Belə ki, onlar gəlinin saçını hörməyə başlarkən ocağa piy tökərək ocağın yüksək alovla yanmasına çalışır və alqış edirdilər. Bu adətin daha yaxşı anlaşılması üçün Ziya Göyalpdan böyük bir iqtibas verməyi düşünürük. "Törkün türklərə görə ata ocağı dediyimiz şeydir. Ailə tanrısı bu ocaqda sığındığı, yaşadığı üçün ocağın odu heç vaxt sönməməliydi. Bundan dolayıdır ki, böyük və ortancıl qardaşlar evlənərək törkünü tərk etdikdən sonra törkündə ocaq gözətçisi kimi kiçik qardaş qalardı. Müəyyən vaxtlarda ata ocağına toplanaraq əcdada hörmət ayinləri keçirilirdi".

Z.Göyalp daha sonra belə yazırdı: "...türklərdə hər evlənmədən yeni bir ev doğardı. Ailə qurmaq üçün kişiylə qadının birləşməsinə "evlənmək" və "evbarak" deyilməsi də buradan irəli gəlir. Təkələrdə gəlinlə oğlanın çadırı yeni qurulduğu üçün ağdır. Bu səbəbdən ona "ağ ev" deyilir. Digər çadırlar isə zaman keçdikcə qaralmışdır...

Törkünün pərisi ocaqda yaşadığı kimi, ağ evin pərisi də barkda yaşayırdı. Evin, biri ərə, digəri arvadına aid olmaqla, iki pərisi vardı. Birinciyə "öd ata", ikinciyə isə "öd ana" deyərdilər. Gəlin hər səhər bir parça kərə yağını ocağa atar və "öd ana, öd ata!" deyə dua edərdi". Z.Göyalpdan gətirdiyimiz bu örnək ocaqla bağlı qədim türklərin icra etdikləri gündəlik ayini az-çox gözlərimiz qarşısında canlandırır. Ocağa yağın atılması ocaq tanrı və tanrıçalarını rəhmə gətirmək, onları küsdürməmək üçün düşünülmüş bir vasitədir. Ümumiyyətlə, bununla süd və süd məhsullarının əski insanların təsəvvürlərində müstəsna rolu, habelə sakral dünyagörüşündə oynadığı rol barədə yeni bir yazının anonsunu da verməli olar.

Qısa bir misalla yazıya son qoymağın məqamı yetişdiyini düşünürük. Evdə ölüm-itim, xəstəlik, bədbəxt hadisə barədə söhbət düşərkən ocaqdan köz götürüb bayıra atmaqla insanlar bu cür bəlaların evlərinə daxil olmasını önləmək istəyir, oddan bir qoruyucu vasitə kimi istifadə edirdilər.

P.S.

Xatırlatmağı özümüzə borc bilirik ki, bu yazıda xalq yaddaşında ocaqla bağlı mövcud olan inancların cüzi bir hissəsindən istifadə etmişik.

**Afiq MUXTAROĞLU**

# MÜƏLLİMLƏRİN EMOSİONAL VƏ PSİXOLOJİ TÜKƏNMƏ SƏBƏBLƏRİ



Bu yazını müəllimlərə həsr etmək istədim. Daha dəqiq desəm, məqsədim onların qarşılaşdığı emosional və psixoloji tükənmə haqqında fikirlərimi sizlərlə bölüşməkdir. Müasir cəmiyyətlərdə məktəbin əsas funksiyası uşaqların təhsil alma hüquqlarını təmin etməkdən ibarətdir. Məktəb sosial institut olmaqla hər bir uşaq və gəncin ailədən sonra sosiallaşma prosesi keçdiyi ən əlverişli mühitdir. O, müxtəlif xarakterdə və yaşda olan insanların hər gün təmasda olduğu, onların inkişafında əsas rol oynayan təhsil məkanıdır. Məktəbin aparıcı qüvvəsi isə müəllimlərdir. Məktəbin uşaq və gənclərin inkişafına təsiri əsasən müəllimlərin təhsil prosesinə yanaşması ilə müəyyən edilir. Təhsil prosesinə yanaşma isə onun keyfiyyətinə və perspektivinə birbaşa təsir göstərən fundamental səbəblərdən ən önəmlisidir.

Mən bu yazımda müəllimlər, onların pedaqoji fəaliyyətlərində yaşadıqları emosional və psixoloji tükənmə prosesinə diqqət çəkmək istəyirəm. Fikrimcə, öz aktuallığını heç vaxt itirməyən, eyni zamanda müəllimlərin üzləşdiyi həlli vacib problemlərdən biridir. Pedaqoqların emosional və psixoloji tükənmə prosesi qısa müddət ərzində deyil, uzunmüddətli əmək fəaliyyəti nəticəsində yaranır. Uzun illərin xroniki stresi fonunda başlayan və ümumilikdə təhsil və tədris prosesinə dağıdıcı təsir göstərərək ciddi çətinliklər yaradır. Bu problem dünyanın bütün ölkələrində mövcuddur və hər yerdə özünəməxsus üsullarla həll olunur. Deməli olar ki, müəllimlərin böyük əksəriyyətinin üzləşdiyi problem olaraq mənfi dinamikayla artmaqdadır. Müəllimlər çox yüksək məsuliyyətli işin icraçıları olduqları üçün emosional tükənməyə daha çox məruz qalan insan qruplarıdır. Fikrimcə, problemin yaranmasının bir çox səbəbləri vardır. Yuxarıda diqqət çəkdiyim səbəblərlə yanaşı, müəllimlərin gündəlik fəaliyyətlərində həddindən artıq insan kütləsi ilə təmasda olmalarını və ünsiyyət qurmalarını göstərmək olar. Digər səbəb kimi kollektivdə olan qeyri-sağlam mühiti, məktəb rəhbərliyinin düzgün qurulmayan iş prosesini, həmçinin müəllimlər arasında olan rəqabəti göstərmək olar. Bunlarla yanaşı, iş prosesi və onun çətinliklərini xüsusi vurğulamaq istərdim. Sinifdə çətin tərbiyə olunan, sosial məsuliyyəti aşağı ailələrdən olan uşaqların olmasını da göstərdiyim səbəblər sırasına əlavə etmək lazımdır. Mən bunlarla yanaşı pedaqoqların, daha doğrusu, inklüziv təhsil üzrə fəaliyyət göstərən müəllimlərin bu risk qrupunda olan və daha çox stresə məruz qalmalarını ön plana çəkərdim. Bu sahədə çalışan psixoloq və müəllimlər daha çox emosional və psixoloji tükənmə qrupunda olanlardır. Siniflərdə çox aşağı təhsil göstəriciləri olan uşaqlarla qurulan iş prosesi müəllimdən həddindən çox səbir və dözüm tələb edir. Bu problemi yaradan səbəblərdən biri kimi də valideynlərlə iş prosesini göstərmək istəyirəm.

Müxtəlif sosial təbəqələrdən olan, mədəni və intellektual səviyyəsi kəskin fərqlənən insanlarla ünsiyyət qurmaq, onlarla əməkdaşlıq etmək və onları təlim-tərbiyə prosesinə cəlb etmək böyük enerji tələb etməklə yanaşı, yüksək dözümlülük və müdriklik tələb edir. Bunları problemin mənəvi tərəfləri hesab etmək lazımdır. Qeyd etmək lazımdır ki, əməkhaqqının azlığı, məktəbdə əlverişli iş şəraitinin olmaması, dərs otaqlarının müasir standartlara cavab verməməsi də əsas və ciddi səbəblərdəndir. Fikrimcə, problemin həlli və aradan qaldırılması ən öndə olan və həlli vacib məsələlərdəndir. Məncə, emosional və psixoloji tükənmə kimi ciddi problemin olmaması müəyyən dərəcədə müəllimlərin özlərindən də çox asılıdır. Fikrimcə, müəllimin psixoloji dözümlülük səviyyəsinin yüksək olması müsbət xüsusiyyət kimi dəyərləndirmək olar. Bu xüsusiyyətin olması məktəb mühitində qarşılanan çətinliklərin asanlıqla aradan qaldırılması üçün çox faydalıdır. Müəllimlərin öz resursları hesabına öhdəsindən gələ bilmədikləri problemin həlli yollarından biri kimi onlara psixoloji dəstək göstərmək mütləqdir. Bununla yanaşı, düzgün və səmərəli istirahət də əsəb sistemində müsbət dönüş yaradır və müəllimi müsbət enerji ilə yükləyir.

Müəllimlərin emosional və psixoloji durumunun çox yaxşı səviyyədə olması təhsil prosesinə birbaşa təsir göstərərək onun müsbət yöndə inkişafına təkan verən əsas amildir. Müəllimin yüksək iş motivasiyası şagirdlərin əhvali-ruhiyyəsinə müsbət təsir göstərərək onları həvəsləndirir və müəllim-şagird münasibətlərini səmərəli şəkildə tənzimləyir. Bununla yanaşı, təhsil və tədrisin keyfiyyətini artıraraq onu daha effektiv və perspektivli edir.

Qeyd etmək istəyirəm ki, savadlı, bacarıqlı və yüksək intellektual və mədəni səviyyəsi olan müəllimlər bizim sərvətimizdir. Ancaq məktəbdə işləmək üçün bunlar kifayət deyil. Kommunikasiya qurmaq bacarığı olan, stresə dözümlü insanlar həyatın müxtəlif sahələrində olduğu kimi məktəbdə də daha çox tələb olunan qrupudur. Təhsil sistemində bu cür insanların, daha dəqiq desək, müəllimlərin olması kollektiv və məktəb rəhbərliyi, ən əsas da məktəblilər üçün böyük töhfədir. Ümumiyyətlə, xoş, mülayim və pozitiv enerji ilə dolu insanların təhsil sistemində işləmələri, onların gənclərlə maraqlarının üst-üstə düşmələri, onların ruhuna yaxın olmaları şagird və müəllim arasında dostluğu və əməkdaşlığı daha səmərəli və uzunmüddətli edir.

Fikrimcə, belə ciddi problemin yaranmaması üçün pedaqoji kollektivin hər bir üzvü çalışmalı və bir-birilərinə dəstək olmalıdırlar. Kollektivdə əlverişli iş şəraitinin olması pedaqoqlar arasında xoş insani münasibətlərin qurulması və formalaşması, eyni zamanda, peşəkar fəaliyyətin daha müsbət nəticələr verməsi bilavasitə məktəb rəhbərliyinin apardığı düzgün iş prosesindən asılıdır. Müəllimlərin çox çətin və məsuliyyətli fəaliyyətləri zamanla onların iş təcrübəsi və illərin sayını artırmaqla bərabər onların sağlamlığına ciddi şəkildə zərər vurur. Neçə nəsil gənclərin yetişdirilməsi, inkişafı və böyük həyata hazırlanması müəllim əməyinin, müəllimin tükənməz sevgisinin, qayğısının və səbrinin nəticəsində baş tutur. Mən əziz və dəyərli müəllimlərimizə çətin və şərəfli fəaliyyətlərində uğurlar arzulayıram!

**Leyla YUSİFOVA**
*Vətəndaş təhsili fənni üzrə müəllim*

# TƏRƏZİNİN SAĞ QOLU



Açığı, nə zamandan bəri azı-çoxu bir-birindən ayıra bildiyimi bilmirəm. Amma uşaq vaxtı mənə təklif olunan konfetlərdən böyük görünəni seçdiyim yadımdadır. Bu hadisə nə qədər adi görünsə də, bəlkə də həyatdakı bütün seçimlərin təməlini qoydu. Elə o konfeti çantama atıb məktəbə gedən kimi də müqayisəni öyrətmişdilər mənə.

Aşağı siniflərdə rəqəmləri öyrənəndə sıfırın əslində heç nə ifadə etmədiyini deyən təhsil sistemi, nədənsə böyük siniflərdə fikrini dəyişdirmişdi. Artıq bir rəqəmin sonunda nə qədər çox sıfır olarsa bir o qədər böyük olur deyirdi. Elə o gündən mən də gözümə harada çox sıfır dəyirdisə ">" işarəsini oraya yazırdım. Müqayisə üzərində o qədər misal işləmişdim ki, artıq ədədin hansı rəqəmlərdən təşkil olunduğuna belə baxmırdım, hansının yazılışı gözümə uzun dəyirdisə onu seçirdim.

Sonra rəqəmlərin yanına bəzi hərflər yazdılar – birinə kiloqram dedilər, birinə metr, birinə saniyə, birinə də coul. Bu hərflərin gəlişi ilə bir şeyi ölçmək üçün lazım olan bütün parametrlər tamamlanmışdı. Bu da o demək idi ki, artıq həyatın özü də ölçülə bilən bir sistemə çevrilmişdi. Elə o günlərdən bəlli idi, böyüyəndə hər şeyi ölçməyimizi tələb edəcəklər.

O qədər alışdıq ki bu vəziyyətə, tələb olunmayan şeyləri də ölçməyə, müqayisə etməyə başladıq. İlk özümüz çıxıb gözlədik tərəzinin sağ gözündə, uğur gətirsin deyə qəsdən sağı seçdik. Sonra həyatda var olan hər şeyi qoyduq sol tərəfə. Gah xoşbəxtliyi müqayisə etdik özümüzlə, gah bir ovuc qızılı, gah ömürlük uğuru, gah da üçotaqlı bir evi. Hər dəfəsində də sol tərəf ağır gəldi.

Gecələr gözümüzə yuxu getməz oldu, neçə-neçə gecələri sabahladıq, sağ tərəf daha ağır gəlsin deyə etmədiyimiz qalmadı. Amma olmadı. Sol tərəfdə dayanan hər şeydən daha dəyərsiz olduğumuz düşüncəsi bizi yedi-bitirdi. Bu halın adına birimiz depressiya dedik, birimiz tənbəllik, birimiz ümidsizlik...

"Bir kilometrmi daha uzundur, bir kiloqrammı?" sualını verməyən, onları bir-biri ilə müqayisə etməyən insan özünü hər şeylə müqayisə elədi. Gah cansız əşyalarla, gah da dadını, qoxusunu, görüntüsünü bilmədiyi hisslərlə, duyğularla. Özünün də bir ölçü vahidi olsun istədi, hətta hər şeyin ölçü vahidinin eyni olmasını arzuladı. Çünki nədən dəyərli, nədən dəyərsiz olduğunu öyrənməyin başqa variantı yox idi.

Bizləri qeyri-adi istəklərə vadar edən də elə özümüz idik, cəmiyyətin dayanıb-durmaq bilməyən tələbləri, hər gün daha da ağırlaşdırdığı standartları idi. Sonra öz ağlımızla müqayisə anlayışını "ədalətliləşdirdik". Daha doğrusu, hər şeyi sadələşdirmək məqsədilə mürəkkəbləşdirdik. Artıq cahillik olaraq baxırdıq qeyri-real müqayisələrə, inkişaf etmişdik guya.

Ərinmədən, yorulmadan tərəzinin sol gözündə olan hər şeyi boşaltdıq, daşıdıq hansısa bir zirzəmiyə. Onların yerinə isə canlı-qanlı insanları gətirdik. Dedim axı, niyyətimiz ədalətli müqayisə idi...

Qısacası, sırf həyatda var olduğumuzu, dəyərimizi təsdiq etmək, göz önünə sərmək üçün hər şeyə əl atdıq. Bircə oturub-durduğumuz tərəzidən düşüb həyatı yaşamaq gəlmədi ağlımıza.

Nə olasıdır, canımız sağ olsun...

**Hürnisə ƏHMƏDOVA**
*Tbilisi Dövlət Universitetinin kimya fakültəsinin ikinci kurs tələbəsi*

# AĞA MƏHƏMMƏD ŞAH QACARIN TİFLİS ŞƏHƏRİNƏ HÜCUMU

ALEKSANDRE ORBELİANİ



*(əvvəli ötən sayda)*

O hadisələrdə çar İraklinin yanında olan ilk meyitlər, lap başdan son ana kimi olanların adları itməməli, burada yazılmalıdır.

Birincisi. Çar İraklinin oğlu Vaxtanq *(adı Almasxan).* Üç yüz atlı aznaur övladları öz xidmətçiləri ilə birlikdə, hamısı müharibədə həlak olan, başlarını orada qoyan araqvililər onunla idi. Bu şahzadə heç nədən üç yüz döyüşçü deyil, o vadinin osetinləri, yaxşı adamları ilə üç min nəfər gətirə bilərdi, amma şeytanlar ora gizlicə soxulub onların qarşısını aldılar. İkincisi. Çar Georginin oğlu şahzadə İvane həmişə ayrılmadan babasının yanında olub və hər müharibədə qorxmaz qəhrəman kimi vuruşub. Dəfələrlə çarın üzərinə dolu kimi güllə yağdırılanda şahzadə İvane irəli durub sinəsini gərirdi. O zaman Ksani onun əlində idi, min atlı çıxarda bilərdi, ancaq əlliyə qədərini güc-bəla ilə çıxara bildi. Bu da şeytanların üzündən oldu. Üçüncüsü. Çar İraklinin kürəkəni İvane Muxran batononun arxasını qoruyurdu və ayrılmadan həmişə yanında idi, nə qədər təhlükədən onu sovuşdurmuşdu. Bu da minə qədər atlı çıxara bilərdi, amma onun altmışa qədər atlısı var idi. Təbii ki, burada da Muxran düzündə şeytanlar var idi. Heç də iki-üç yerdə deyil, bütün Gürcüstanda mənfur, xain adamlar, şeytanlar var idi. Dördüncüsü. Çar İraklinin kürəkəni həmin müharibələrdə fərqlənən tavad Zaxariya Andronikaşvili *(bunu yuxarıda da qeyd etdik)* və tavad İvane Abaşidze hər zaman çarın yanında idilər. Bu ikisi öz qohumları və xidmətçiləri ilə hansı tərəfə hücuma keçsəydilər düşmənlər dərhal qaçacaqdılar, lakin xidmətçilər müharibədə çox az qaldılar. Beşincisi. Çarın miskərbaşı İoseb Bebutaşvili və həmin sarayın adamı gənc oğlan Arsen də birinci müharibədə çarı müşayiət edirdilər, lakin həmin bazar gecəsi gizlicə qaçdılar, Vera vadisinə üz tutaraq sığınanların yanına getdilər. Arsenin özündən eşitmişəm: "Çarın özü bizi buraxıb, bəs nə deməli idim?" Bununla özünü doğruldurdu, amma mən dəqiq bilirəm ki, qaçıb gizləniblər. Arsen mənim yaxşı tanışım idi, ondan o vaxtların çox xəbərlərini eşitmişəm. Altıncısı. Otar Amilaxvari də o dəhşətli müharibələrdə çar İraklinin yanında idi və digər tavadlar da o qədər yaxşı işlər görürdü ki, çar İraklinin iki min döyüşçüsünə münasib idi. Belə ki, orada öz həyatlarının son damla qanına kimi fədakarlıqla vuruşurdular *(Ağa Məhəmməd şah Qacarın müharibəsi xəbərini tavad İoseb Amilaxvarinin oğlundan da eşitmişəm, o da orada idi).* Şişirdilmiş tərif nəyə lazımdır? – O iki min gürcü döyüşçüsü özlərinin knyazları ilə bir-birindən üstün idilər. Knyazların xidmətçiləri özlərini daha çox təsdiq etdilər. Demək olar ki, düşmən tərəfindən hamısı həlak oldu və əgər kimsə qaldısa, bəli, çox az qaldı.

Təsəvvür edin, Gürcüstanda hansı xəyanət olmalı idi, bütün Gürcüstandan və tatarlardan iki mindən çox döyüşçü çar İraklinin yoxu idi? Bu qədər şeytanlıqla dolu, allahsız, xəyanətkar haradasa olubmu?

Çar İrakli və onun gürcüləri ertəsi gün səhər açılmamış Saquramodan yığışıb yola düşdülər və həmin gün Mtiuletiyə çatdılar – Ananurinin yuxarısındakı qalanın ətəyində yerləşən kəndə. Və oradan da ertəsi gün tezdən Batatantgilin sarayına çatdılar ki, burada çar İrakli sığınmışdı.

Çariça çar İrakliyə baxıb onun dəmirin pası rəngli üzünü görəndə dəhşətli bir şəkildə qışqırdı: Vay halıma, yazıq şəhər məhv oldu. Və özündən getdi. Başına yığıldılar və bir saatdan sonra çətinliklə onu özünə qaytardılar. Sonra qəmli-qəmli sözlərlə ağı dedi, orada elə hönkürtü başladı ki, dərə də əks-səda verirdi, uğultuya bənzəyirdi. Ürəyi sınmış, ürəyi qırılmış, göz yaşı tökmədən başını aşağı salmış halda bədbəxt çar İrakli xeyli müddət susmuşdu. Nəhayət, başını qaldırıb çariçaya dedi:

– "Mənim sevimli çariçam, səbir elə, qadan alım".

Sonra bu cür durumda necə səbir etməyi ona danışdı. O birisi gün yığışıb getməyi buyurdu və oradan Burdulgilin qapısına gəldilər.

İlk dəfə qızılbaşlar şəhərə daxil olanda, Ağa Məhməmməd şah gürcülərin ələ keçirilmiş toplarının yanında dururdu ki, bu vaxt xəbər gəldi: Şəhəri aldıq. Onda sevinclə gəldi və çarın sarayını gördü, çox xoşuna gəldi və dedi: "Mən İranın hökmdarıyam, mənim belə sarayım yoxdur".

Sonra çarın xəzinəsini görüb sərvətinə heyrət etdi. Sonra dönüb Çərşənbə axşamı hamamında yuyundu və bu günə kimi onun çimdiyi hovuza "Şah hovuzu" deyirlər. Yuyunub oradan çıxdı və çox məmnun halda Soğanlığa getdi. Oradan əmr verdi: Gürcüstanın üzərinə talançılar getsin, amma haradasa kiçik bir ordu görsəniz, dərhal dönüb geri gəlin.

Talançılar Kartlinin Tirifona düzənliyinə qədər getdilər və daha irəli getməyə cəsarət etmədilər, bütün boşalan kəndləri çapıb talan etdilər. Hətta yolda kimə çatdılar, kim müqavimət göstərdisə öldürdülər, kim müqavimət göstərmədisə əsir götürdülər. Kaxeti isə əmin-amanlıqla xilas oldu. Lilodan o yana qoşun getmədi.

Doqquz gündən sonra onlar daha irəliləyə bilmədilər və qoşun bütün şəhərin qırağına toplandı; Ağa Məhəmməd şah Qacar onların içinə girdi, şəhəri dolandılar. Sololak dağını aşıb İran tərəfə üz tutdular. Cavad xan soruşdu: "Niyə belə tez buyurub gedirsiniz?"

– "Tez getsək yaxşı olar. Çar İrakli ağıllı adamdır və çox şeydə təcrübəlidir. O, şəhəri qəsdən bizim öhdəmizə buraxdı; kirimişcə qoşunları gətirmək və hamımızı birlikdə qırmaq istəyir. Buna görə də tez getməyimiz daha yaxşıdır". Bu Ağa Məhəmməd şah Qacarın cavabıdır. Cavad xanın İrakli ilə söhbəti və yenə başqa şeylər...

Tiflis şəhəri də belə idi. Qalan camaatı əsir aldılar, ölümlə heç kimi o qədər də cəzalandırmadılar. Əgər bir kimsə müqavimət göstərməsə idi, əl qaldırmasa idi, heç kim onları öldürməzdi. Bundan əlavə, şəhərin bir çox binasını yandırmadılar, lakin daha yaxşı binalar və çar İraklinin sarayı da yandırıldı. Bundan sonra çar İrakli öz qəyyumları ilə Telaviyə getdi. Xəstə çariçanı ora yerləşdirdi. Taqətsizlik üzündən istisi qalxmağa başladı. Özü qəm-qüssəyə batmış, sığınmış camaatın toplaşdığı Tiflis şəhərinə gəldi. Çar İraklinin köməkliyi ilə binaları yenidən tikənlərə bacardıqca təsəlli verdi. Halbuki çar İraklinin də çariçanın yığışıb getdiyi zaman götürülən şeylərdən başqa heç nəyi qalmadı *(Yuxarıda da deyildi).* Ağa Məhəmməd şah Qacar beləcə çarın sarayını tar-mar etdi. Amma o, hər halda çar idi, öz imkanlarına görə camaata yardım edə bilərdi. Etdi də. Çar İrakli təəccübləndi: "Mən daha çox başqa cür fikirləşirdim. Camaata böyük amansızlıqlar edərdi. Allahın köməkliyi ilə o əsirləri xilas edəcəyik", – dedi, axırda elə də oldu, orada az əsir qaldı. Amma Ağa Məhəmməd şah Qacar tərəfindən şəhərin alınması çar üçün ağır idi və onun barəsində çox fikirləşirdi: Onun tərəfindən yurdun bərbad edilməsi onu çox incidirdi. Halbuki öz dövründə məğlub olmayıb. Son vaxtlar Ağa Məhəmməd şah Qacar çar İraklinin üzərinə hər halda yenə qoşun yeridəcəkdi. Belə ki, İrandan xəbər gəldi: Ağa Məhəmməd şah Qacar yenə gəlmək niyyətindədir.

*(davamı növbəti sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com "ახალი გზა" საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 MAY
2025-Cİ İL
№ 09 (226)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## TƏHSİL KOMİTƏSİNİN SƏDRİ: "YAXIN GƏLƏCƏKDƏ 1+4 SİSTEMİNİN LƏĞV EDİLMƏSİ BARƏDƏ DÜŞÜNMƏLİYİK"



***"Yaxın gələcəkdə etnik azlıqlar üçün gürcü dili üzrə hazırlıq təhsil proqramı 1+4 lazım olmayacaq".*** Bu barədə mayın 5-də Təhsil, Elm və Gənclərin İşi üzrə Komitənin sədri Givi Mikanadze komitənin iclasında bildirib.

Onun sözlərinə görə, Gürcüstanın qeyri-gürcüdilli vətəndaşlarının dövlət dilini bilmə səviyyəsi yaxşılaşıb:

***"Xüsusilə qeyd etmək istəyirəm və biz bunun şahidiyik ki, son illər ərzində bu yöndə vəziyyət radikal şəkildə dəyişib. Bizim erməni və azərbaycandilli həmvətənlərimizdə, xüsusilə də gənclərdə vəziyyət yaxşıdır".***

Givi Mikanadze komitə üzvlərini Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Nazirliyin araşdırmasının göstərdiyi statistik məlumatla tanış edib. Həmin statistikaya əsasən, qeyri-gürcüdilli gənclərin 93 %-i gürcü dilini yaxşı səviyyədə bilir.

***"Əlbəttə, işimiz hələ çoxdur və bu baxımdan həmin işlər artacaq, azalmayacaq. Belə göstəricilər bizim motivasiyamızı artırır və mən düşünürəm ki, əgər proses bu göstəricilərlə davam etsə bir neçə ilə biz ümumiyyətlə 1+4 sistemindən imtina etməliyik. Çünki həmvətənlərimizi qeyri-bərabər vəziyyətə salmağımız da qismən düzgün deyil. Ona görə də indiki göstəricilər, bu statistik analizin əsasında yaxın gələcəkdə 1+4 proqramının ləğv edilməsi barədə düşünməyə bizə imkan verir. Çünki bütün vətəndaşlar arasında gürcü dili biliyi yüksək səviyyədə olacaq. Bu, əlbəttə, bizə sistemi artıq ləğv etmək imkanı verir",*** – deyə komitə sədri bildirib.

## GÜRCÜSTANDA 57 İKİNCİ DÜNYA MÜHARİBƏSİ VETERANI QALIB



Gürcüstan hökuməti faşizm üzərində qələbənin 80-ci ildönümü münasibətilə İkinci Dünya müharibəsi veteranlarına birdəfəlik yardım olaraq 2000 lari, cəbhədə həlak olan müharibə iştirakçılarının ailələrinə isə birdəfəlik 1000 lari məbləğində yardım verib.

Gürcüstanın Veteranlarla İş üzrə Dövlət Xidmətinin məlumatına görə, Gürcüstan cəbhəyə 700 min əsgər verib, onlardan yalnız 300 mini vətənə qayıdıb. On minlərlə gürcü hökumət mükafatlarına layiq görülüb, onlardan 167-si Sovet İttifaqı Qəhrəmanı olub. Onların arasında ən məşhuru 1945-ci ilin mayında serjant Mixail Yeqorovla birlikdə Reyxstaq üzərində Qələbə bayrağını qaldıran kiçik serjant Meliton Kantariyadır (1921-1993).

**Hazırda Gürcüstanda 57 İkinci Dünya müharibəsi veteranı var.**

## İRAKLİ KOBAXİDZE "GÜRCÜ ARZUSU" PARTİYASININ SƏDRİ SEÇİLİB



Mayın 7-də Gürcü Arzusu – Demokratik Gürcüstan Partiyasının növbədənkənar qurultayı keçirilib. Qurultayda Baş nazir İrakli Kobaxidze partiyanın yeni sədri seçilib. Qurultayda siyasi şuranın yenilənmiş tərkibi də təsdiqlənib.

Qeyd edək ki, İrakli Kobaxidze 2021-ci ildən 2024-cü ilədək partiyanın sədri olub. 2024-cü ildə partiyanın yeni sədri seçilmiş İrakli Qaribaşvili bu ilin aprelin 25-də vəzifəsindən istefa verib, siyasətdən getdiyini bəyan edib.

## ÖLKƏNİN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ 15,3 FAİZ ARTIB



Gürcüstan Milli Statistika Xidmətinin hesabatına əsasən, 2025-ci ilin yanvar-aprel aylarında Gürcüstanın xarici ticarət dövriyyəsi (bəyan edilməmiş ticarət istisna olmaqla) 7 milyard 755,7 milyon dollar təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 15,3 faiz çoxdur.

Məlumata görə, bunun 2 milyard 14,4 milyon dollarını ixrac (artım 14,2 faiz), 5 milyard 741,3 milyon dollarını (artım 15,7 faiz) isə idxal təşkil edib.

Bu ilin yanvar-aprel aylarında ticarət dövriyyəsində 3 milyard 726,9 milyon dollar mənfi saldo qeydə alınıb ki, bu da xarici ticarət dövriyyəsinin 48,1 faizini təşkil edir.

## GÜRCÜSTAN VƏTƏNDAŞLARI ƏN ÇOX TÜRKİYƏYƏ SƏFƏR EDİBLƏR

Gürcüstanın Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, bu ilin yanvar-mart aylarında xaricə səfər etmiş Gürcüstan vətəndaşlarının sayına görə Türkiyə birinci yerdədir.

Məlumata görə, xaricə gedən gürcüstanlıların 37,6 %-i Türkiyəyə, 18 %-i Avropa İttifaqı ölkələrinə, 14,3 %-i Ermənistana, 13,5 %-i Rusiyaya, 2,3 %-i Azərbaycana, 14,4 %-i isə digər ölkələrə səfər edib.

Xaricə səfərlərin 98,6 %-i təkrar səfərlər olub.

Hesabat dövründə Gürcüstandan xaricə 614,7 min nəfər səfər edib ki, bu da illik müqayisədə 4,4 % azdır.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.